# SÜMÜK

Kim deyir ki, hər bir insanın bir boğazı var?
Mən deyirəm ki, yox, bu doğru deyil, hər bir insanın bir deyil, iki boğazı vardır.
Mən özüm də bunu qabaqlar heç bilməzdim, amma indi bu mənə lap aydın bir həqiqətdtir ki, hər bir insanın iki boğazı vardır. Mən bunu ikinci boğazımda sümük qalandan sonra başa düşdüm. Bilirəm ki, siz lap çaşbaş qalıb deyəcəksiniz ki, necə hər bir insanın iki boğazı ola bilər?!
Belə isə, mən bunu sizə sübut etmək istəyirəm:

Mən də bir çox vətəndaşlarımız kimi doğma mahnılarımızı çox sevirəm, desəm ki, bir çoxlarından belə daha çox, yalan olmaz! Hər zaman yorulanda, mahnılarımıza və havalarımıza sığınaram. Bizim mahnılarımız məni dincəldər, könlümə işıq, ümid və həyat sevgisi gətirər. Mahnılarımızı eşidəndən sonra yüngülləşər və yenidən qüvvət alaram. Əsl sözümdən yayınsam da mütləq demək istəyirəm ki, olmuş ki, yolum məni ən dəhşətli uçurumlara aparmışdır, elə dəhşətli ki, dizlərim nədir ki, ruhumun kökləri belə titrəmişdir və belə zamanlarda mahnılarımız əlimdən yapışıb məni o amansız uçurumlardan keçirmiş və “qorxama biz hər yerə səninlə gələcəyik!” Demişdir.

Mən indiyəcən mahnılarımızda “xoşbaxt ellərimiz, cənnət ellərimiz” kimi sözləri eşidəndə doğrudan da dərin nəşə duyar və ruhum göylərə yüksələrdi. Düşünərdim ki: “Nə yaxşı ki, bu amansız, bu kədərli dünyada insanları xoşbaxt yaşayan və elləri cənnət olan bir torpaq vardır və mən özüm oranı görə bilməsəm də, ora mənim vətənimin bir parçasıdır.” Belə düşünər və ruhum qürur və sevinc duyğuları ilə dolardı.

Sonra bir çoxlarına bilindiyi kimi, mənə də bəlli oldu ki, bütün bu sözlər ağ yalanmış! Ora nəinki cənnət deyilmiş, həm də ki, cənnətdən çox uzaqlarda qalan, düşüncə və inam azadlığı əsir quşlar kimi qəfəsdə saxlanan və məhrumiyyət, yoxsulluq "firavanlıq" və rüşvət isə "hörmət" adlanan bir ölkəymiş!

İndi mən doğma mahnılarımızı dinləyərkən belə sözləri eşidəndə, necə deyərlər, heyrətdən gözlərim kəlləmə çıxar. Buna baxmayaraq, o mahnıları da bir yana tullamaq olmur axı, beş deyil, on deyil, o qədər gözəl, o qədər ruhumuzu oxşayan mahnılarımız var ki, bu kimi ağ yalanlarla doludur!

Və bir neçə gün bundan qabaq yenə də mahnılarımıza qulaq asırdım. Gözəl səsli bir qadın çox şirin bir səslə oxuyurdu. Mən də o səsi bal kimi çeynəmədən udurdum, birdən eşitdim ki, oxuyan qadın deyir: "Torpağı başdan-başa cənnət görmək istəyən, Azərbaycana gəlsin!" Artıq buna tab gətirə bilmədim və elə bu zaman hiss etdim ki, boğazımı xəncər kimi iti bir şey yarıb keçdi. Tez əlimi boğazıma sürtüb onu yoxladım, boğazım sapsağlam idi. Dərin bir nəfəs aldım, boğazımda heç nə qalmamışdı. Buna baxmayaraq yenə də hiss edirdim ki, boğazımda sivri bir şey ilişib qalmışdır. Birdən şimşək çaxan kimi başımdan bir fikir çaxıb keçdi və anladım ki, xəncər kimi boğazıma batıb qalan bu şey mənim cismimin deyil, ruhumun boğazında qalmışdır və eşitdiyim o ağ yalan sivri bir sümüyə dönüb və mənim ruhumun boğazına sancılmışdır.

Artıq bir neçə gündür ki, mə´nəvi qarnım acdır, ruhumun boğazını iti bir sümük tutmuşdur, heç bir həkimin çıxara bilməyəcəyi bir sümük!

1989. Bonn